UOT: 73/76
https://doi.org/10.59849/2311-8482.2025.3.218

NƏRMİN KƏRİMLİ*

# BAKI PARKLARINDA MONUMENTAL HEYKƏLLƏR

*Heykəl, abidələr Bakı şəhərində parklarına xüsusi gözəllik, dərin məzmun verir, ucaldıldığı ərazinin özünəməxsus koloritini tamamlayaraq yaraşığını daha da artırır, şəhərin gözəlliyinin müəyyənləşməsində təbii şəraitlə bərabər böyük rol oynayırdılar.* .

***Açar sözlər:*** *Monumental heykəltəraşlıq, park, heykəltəraş*

Təsviri incəsənətin geniş yayılmış bir sahəsi olan heykəltəraşlıq həyat hadisələrini bədii obraz lar vasitəsi ilə əks etdirir.Heykəllərin,əsasən iki növü
vardır: birincisi,həcmli və ya dəyirmi(bunlara hər tərəfdən baxmaq mümkündür),ikincisi isə səth ü zərində qabartma şəklində yaradılan heykəllərdir. Belə heykəllərə barelyef (və ya qorelyef) deyilir. Həcmli heykəllər statiya adlanan tək fiqurlu kom-
pozisiya formasında, statuyetka adlanan kiçik ölçülü heykəllər isə büst formasında yaradılır.

Azərbaycanın paytaxtı Bakı şəhərində monumental heykəltəraşlıq, həmçinin dekorativ heykəlt əraşlıq nümunələri çoxdur. Onların bəziləri haqqında söhbət açmaq istəyirik.

Bakı şəhərindəki parklarda bir çox monumental heykəllər mövcuddur. Bu heykəllər arasında Nizami Gəncəvinin heykəli, Mikayıl Əliyevin heykəli, Hüseyn Cavidin heykəli və digərləri var. Bu heykəllər həm sənət əsəri kimi, həm də tarixi və mədəni irsimizin bir parçası kimi qiymətlidir.

Ümummilli Liderimiz Heydər Əliyevin Bakıda onun adını daşıyan sarayın qarşısında, 2005-ci il may ayının 10-
da ucaldılan möhtəşəm abidəsi ən gözəl monumental heykəltəraşlıq nümunlərin-dən sayılır.

Heykəlin müəllifləri Mixail Noqin və Salavat Şorlanov əsər üzərində gərgin yaradıcılıq axtarı şları aparmışlar. Heykəlin hündürlüyü 5,2 metr, ağırlığı 2,4 tondur. Tuncdan tökülmüş bu heykəlin ə trafına hərləndikcə tamaşaçı onda yeni-
yeni keyfiyyətlər görür, bəşəri duyğulara, qranit xarakterə və dahiliyə valeh olur.

Bakının Xətai rayonunda yerləşən Heydər Əliyev adına park əsaslı yenidən qurmadan sonra istirahət edənlərin istifadəsinə verilib.

Yenidən qurma işləri çərçivəsində parkın ərazisi 4 hektardan, 14 hektara çatdırılıb, 30 mindən çox ağac və gül kolları əkilib. 7 kilometr piyada və 1,1 kilometr velosiped yolu salınıb, işıq dirəkləri, skamyalar və məlumatvericilövhələr quraşdırılıb.2500 kvadratmetr avtomobil dayanacağı yaradılmışdır. Parkın ərazisində yerləşən şəlalələr və fəvvarələr kompleksi təmir edilib. Parkda gəzinti üçün nəzərdə tutulmuş sahələr , uşaq və böyüklər üçün 5 müxtəlif yerdə idman və əyləncə guşələri salınıb, burada bütün lazımı avadanlıqlar quraşdırılıb.Parkdakı monitor yenisi ilə əvəz olunub, mədəni –kütləvi tədbirlərin təşkili üçün 918 yerlik amfiteatr tikilib. Heykəl qranitdən düzəldilmişdir.

Bu parkın başqa bir xüsusiyyəti də odur ki, o əsl dostluq rəmzidir. Onun ərazisində müxtəlif ölkələrlə bağlı bir neçə guşə yaradılıb.

Akademik Zərifə Əliyeva adına parkın ərazisi 6,2 hektar,ətrafındakı zeytun bağlarının sahəsi 6 hektardır.2000 –ci ildə parkda tikinti işləri aparılıb. 2008-ci ildə aparılan yenidənqurma işlərindən sonra Prezident cənab İlham Əliyevin iştirakı ilə park yenidən istifadəyə verilmişdir. Parkda akademik Zərifə xanım Əliyevanın abidəsi ucaldılıb. Parkda həm də Zərifə Əliyevanın ağ mərmərdən büstü qoyulub, onun həyat və yaradıcılığını əks etdirən eksponatlar toplanmış xüsusi guşə yaradılıb. Zərifə Əliyeva parkında yerləşən heykəlin müəllifi heykəltəraş Tamara Kvesitadzedir. Bu heykəl, qısa müddətdə böyük maraq doğurmuşdu, çünki Azərbaycan üçün yeni bir üslubda idi. Abidənin ətrafında fəvvarə və idman meydançası yerləşir.Parkda Azərbaycanın müxtəlif iqlim qurşaqlarının florasına nümunə olan 2000 ağac, 4000 kol, çoxlu rəngarəng güllər əkilib. Uşaqlar üçün oyun meydançası tikilib, vətəndaşların istirahəti üçün skamyalar quraşdırılıb.

Mirzə Ələkbər Sabir adına park məhşur satirik şairimiz Mirzə Ələkbər Sabir adına park Bakının Sabail rayonunda yerləşən parklardan biridir. Park cənub tərəfdən "İçərişəhər"in qala divarıyla, şimal tərəfdən İstiqlaliyyət küçəsiylə, şərqdən Konstitusiya məhkəməsiylə, qərbdən isə daha çox İsmailiyyə adıyla tanınan Azərbaycan Milli Elmlər Akademiyasının əlyazmalar institutunun binasıyla sərhəddir. Park keçən əsrin 20-ci illərində "Kaspi" nəşriyyatının yerində salınmışdır. Parkın formalaşması mərhələli şəkildə baş tutub. 1922-ci ildə qala divarının yaxınlığında Mirzə Ələkbər Sabirin heykəli qoyulmuşdur. Bu heykəlin heykəltaraşı Yakov Keylixis, memar isə Sirişev olmuşdur. 1950-ci illərdə parkın ərazisi xeyli genişləndirildi, abadlaşdırıldı və yaşıllaşdırıldı. Bununla əlaqədar olaraq, şairə daha təkmil və yeni heykəlin qoyulması məsələsi aktuallaşmışdır. Beləliklə də, parkda 1958-ci ildə Mirzə Ələkbər Sabirin yeni heykəli ucaldılmışdır. Bu dəfə heykəl parkın mərkəzində qoyulmuşdur. Bu dəfə heykəl qala divarının yanında deyil, bağın ortasında qoyulub. Son illərdə parkda yenidən yaşıllaşdırma və abadlaşdırma işləri aparılıb.

Böyük mütəfəkkir Mirzə Fətəli Axunzadənin adını daşıyan bağ İçərişəhər metrosunun yaxınlığında yerləşir. 1930-cu ildə bu köhnə Bakı bağında Azərbaycan dramaturqu, yazıçısı, filosofu və maarifçisi Mirzə Fətəli Axunzadənin heykəltaraş Petr Sabsaitərəfindən yaradılmış abidəsi ucaldılmışdır. 2008-ci ildə 1300 kvadrametrlik bağ yenidən qurulub .Bərpadan sonra burada mindən çox gül və bəzək kolları əkilib, orijinal lampalar quraşdırılıb, mərmər çığırlar salınıb. Sakinlərin istirahəti üçün skamyalar quraşdırılıb.

1991-ci ildən görkəmli Azərbaycan şairi Xaqani Şirvaninin şərəfinə "Xaqani bağı" adlandırılan parkın ərazisindən 1870-ci illərdə müxtəlif bölgələrdən gələn molokanlar öz mallarını satmaq üçün istifadə edirdilər. Elə buna görə də bu yer yerli əhali arasında əvvəlcə "Molokan bağı" kimi tanınırdı. 1960-ci illərdə bağda "Üç gözəl" heykəli qoyulub.Günəşin, havanın və suyun üç elementini təcəssüm etdirən heykəllər 1990-ci illərdə məhv edilsə də sonradan bərpa edilib. Hazırda bağın memarlıq və landşaft kompozisiyasının əsasını "Üç gözəl" heykəltaraşlıq qrupu olan asimmetrik gölməçə təşkil edir. Yaxınlıqdakı küçələrdə, döngələrdə, həyətlərdə çəllək hazırlanan emalatxanalar vardı. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Molokan bağının adını dəyişib, 1905-ci il qanlı bazar faciəsi ilə əlaqədar "9 yanvar" bağı qoyublar. Sonra bu bağa Həşim Əliyevin adı verildi.

Bağın arxitektura-landşaft kompozisiyasının əsasını "Üç gözəl" heykəllər qrupu ilə əyrixətli formalı hovuz təşkil edir. Zərifliyi ilə seçilən gözəllər hovuzda iri təbii qaya parçaları üzərində oturublar.

Bağ pavilyonunun sütunları hovuzdan başlayır. Bağın cığırları elə istiqamətlənib ki, ətraf məkanı diaqonal üzrə kəsərək, ortada yerləşən hovuzun yanından keçir. Bağ kiçik olsa da, xudmanidir və bakılıların sevimli istirahət yeridir. Bağda ağaclar böyük kölgəlik zonalar yaradır. Kölgəlik yerlərdə isə istirahət üçün skamyalar qoyulub.

Bağ sahəsinin kiçik olmasına baxmayaraq, çox rahat olduğundan vətəndaşların sevimli istirahət yeridir. Bağ sahəsi abadlaşdırılıb, ağacların ətrafına çoxlu kol və güllər əkilib, skamyalar quraşdırılıb, uşaqlar üçün attraksionlar quraşdırılıb.

1980-ci ildə park yaradılmış ərazisi 1,6 hektardır.Parkda heykəltaraş Münəvvər Rzayeva tərəfindən Ayna Sultanovaya abidə ucaldılıb. Əsaslı təmirdən sonra ərazi təmizlənib, yeni ağac və bəzək kolları, müxtəlif güllər əkilib.

İstirahətçilərin tam rahatlığı üçün yeri besedkalar, skamyalar, müasir işıq dirəkləri və idman qurğuları quraşdırılıb.Parkda

2013-cü il dekabrın 13-də aparılan abadlıq işlərindən sonra park şəhər sakinlərin və qonaqların ixtiyarına verilmişdir. 6 hektar ərazini əhatə edən bu istirahət mərkəzində yaşıl yaım əsrdən çoxolan ağaclarla yanaşı, yeni ağac və kollar, müxtəlif güllər əkilmiş, yaşıllıq zolaqları salınmışdır. Parkın mərkəzində heykəltəraş Qyoryut Babayevin "Kitabi-Dədə Qorqud" abiəsi ucaldılıb.

Parkın görkəmli yerlərindən biri də ona xüsusi yaraşıq verın süni göldür. Gölün yuxarı hissəsində süni şəlalə yaradılıb. Parkın on min kvadratmetrə yaxın sahəsi təbii ot örtüyü ilə örtülmüş, müasir işıqlandırma sistemi yaradılmış, oturacaqlar quraşdırılmışdır.

Park ziyarətçilərinin göldə xüsusi qayıqlara minək imkanı da var. Şəhərin ən köhnə parklarından biri, əvvəllər bulvar adlanan Zabitlər parkı faşizmə qarşı döyüşlərdə həlak olan qəhrəmanların xatirəsinə Böyük Vətən müharibəsi illərində salınıb. Müharibədən sonra bu parka iki

dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adı verilib. Əsaslı yenidənqurmadan sonra Zabitlər parkı 2011-ci ildə yenidən açılıb.

Bəzi köhnə cizgilərini çoxillik ağacların kölgəsində gizlədən 4 hektar sahəsi olan Zabitlər parkının siması tamamilə dəyişib. Burada orijinal işıqlandırma sistemi, əzəmətli daş fəvvarə və bu gün Bakının mərkəzi parklarının vizit-kartına çevrilmiş bürünc heykəllər qoyulub. Budur, fikrə dalan şahmatçı öz gedişini planlaşdırır, yaxud çayxana girişində gülərüz çayçı qonaqları salamlayır. Fəvvarənin yaxınlığında, skamyaların birində yorğun bürünc fotoqraf oturub. Bir az aralıda bir qız yoldan ötənlərə çiçək satır. Başqa bir qız isə "xana-xana" oynayır, ondan arxada bir dəstə uşaq əl-ələ verərək coşqun rəqs ritmində donub.

Parkda 700 kvadratmetr sahəsi olan qapalı buz meydançası, görünüşü və orijinal dizaynı ilə diqqəti cəlb edən qeyri-adi "buz" kafesi var.

Hazırda Azərbaycanın Xalq Şairi Səməd Vurğunun adını daşıyan bu park paytaxtın ən köhnə yaşıl məkanlarından biridir. Şəhərin mərkəzində, Bakı Dəmir Yolu Vağzalının və Dəmir Yolu İdarəsi binasının yaxınlığında yerləşən parkın əsası 1882-ci ildə dəmir məmulatı taciri Krasilnikovun şəhər bağının yerində qoyulub. 1961-ci ildə parkda Səməd Vurğunun abidəsi ucaldılıb. Abidənin müəllifləri heykəltəraş F.Əbdürrəhmanov və arxitektor M.Hüseynovdur.

2009-cu ildə park bərpa ediləndən sonra bakılıların və paytaxtın qonaqlarının ixtiyarına verilib. Piyada cığırlarına tava daşları döşənib, qazonlar salınıb. Növbənöv çiçək ləkləri salınıb. Bəzi ləklər Azərbaycan xalçalarının, kəlağayılarının və s. ənənəvi motivi olan buta şəklində əkilib. Parkda hələ sovet dövründə tikilən yaraşıqlı fəvvarələr bərpa edilib, işıqlandırma tamamilə yenilənib, yeni fənərlər quraşdırılıb, yüzillik ağacların kölgəsində rahat skamyalar qoyulub.

Hazırda S.Vurğun adına parkda hər şey ahəngdar və gözəl görünür. Park əvvəlki kimi şəhər sakinlərinin və paytaxtımızın qonaqlarının sevimli istirahət yeridir. Bura ənənəvi olaraq həm ahıllar, həm də cavanlar gəlirlər. Gənc analar, nənələr uşaqları gəzməyə çıxarır, gənclər kölgədə oturub qulaqlıqla musiqiyə qulaq asır, yaxud konki sürür, veteranlar isə bir qayda olaraq ya domino, ya da nərd oynayırlar. İlin isti aylarında axşamlar fəvvarələrin yanında istirahət edənlərin sayı xüsusilə çox olur.

Bakının çox geniş ərazidə yerləşən daha bir köhnə parkı - Zorge parkı bir neçə əyləncə yerini, o cümlədən uşaqlar üçün müasir attraksion parkını birləşdirir. Burada əhalinin istirahət etməsi üçün gözəl şərait yaradılıb, abadlıq və yaşıllaşdırma işləri aparılıb.

1981-ci ildə parkda əfsanəvi kəşfiyyatçı Rixard Zorgenin xatirəsinə abidə ucaldılıb. Abidənin müəllifləri - heykəltəraş V.Tsiqal və arxitektor R.Əliyev konstruksiyanın əsas mahiyyətini orijinal şəkildə çatdırmağa müvəffəq olublar. Divar şəklində abidənin üzərində kəşfiyyatçının təsviri həkk olunub. Onun diqqətli baxışları sanki ətrafdakıları müşahidə edir. Başdan-başa yaşıllıq içində olan park boyu rahat skamyalar düzülüb, uşaq meydançaları yaradılıb. Burada rayon səviyyəli tədbirlər keçirilir.

2012-ci ildə parkda ucaldılan Koroğlu abidəsi də diqqətəlayiq abidələrdən biridir. Abidənin yerdən hündürlüyü 23 metrdir. Əfsanəvi Qıratın belində oturan Koroğlunun möhtəşəm monumenti Ukraynada tuncdan tökülüb. Kompozisiyanın müəllifi Tokay Məmmədovdur.

İstirahət guşəsində "Koala Park" əyləncə mərkəzi də fəaliyyət göstərir. Bura həm uşaqlar, həm də böyüklər üçün eyni dərəcədə maraqlıdır.

Bakının ən gözəl parklarından biri olan Heydər Əliyev adına park şəhərin mərkəzində, Bakı Musiqi Akademiyasının yanında, Heydər Əliyev Sarayının qarşısında yerləşir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 82-ci ildönümündə burada Heydər Əliyevin abidəsi ucaldılan memarlıq kompleksi açılıb. Kompleksi Moskvanın baş rəssamı İqor Voskresenskinin rəhbərliyi ilə Rusiya memarları və heykəltəraşları yaradıb. Abidənin ümumi hündürlüyü 12 metr, heykəlin öz hündürlüyü isə 5 metrdən çoxdur. Park bütünlüklə yenidən qurulub və Heydər Əliyev Muzey-park kompleksi adlandırılıb.

Burada səkkizguşəli ulduz - Azərbaycanın milli rəmzi formasında üç yeni fəvvarə qurulub. Fəvvarələr kompyuter vasitəsilə idarə olunur. Onların üzünə çəkilmək üçün Çindən 50 tonluq bütöv qranit gətirilib. Kompleksin 23 min kvadratmetrlik böyük bir hissəsi Rusiya, Braziliya, İtaliya, Türkiyə və Qazaxıstandan gətirilən mərmərlə örtülüb. Güllər və yaşıl qazon Hollandiyadan gətirilib.

Bütün yay boyu çiçək açan maqnoliya ağacları parka xüsusi yaraşıq verir. Parkda tez-tez şəhər tədbirləri keçirilir.

Heydər Əliyev Sarayının arxasında digər möhtəşəm park kompleksi, el arasında "Qış parkı" deyilən ən yaşıl zona yerləşir. Burada 7 hektardan çox ərazidə 2 minədək ağac və müxtəlif ölkələrdən gətirilmiş 10 mindən çox dekorativ kol əkilib. Ərazinin böyük hissəsi çəmənliklə örtülüb. "Qış parkı"nda 5 müasir və qeyri-adi fəvvarə, 6 yeraltı və 4 yerüstü keçid, 13 lift və 13 eskalator (o cümlədən fiziki imkanları məhdud insanlar üçün eskalator) var. Parkda 3 yay kafesi, 3500 avtomobil üçün ikimərtəbəli yeraltı dayanacaq fəaliyyət göstərir.

Maraqlıdır ki, yolların və park kompleksinin tikintisi zamanı burada unikal əməliyyat aparılıb - binanın yeri 10,6 metr dəyişdirilib. Bu üçmərtəbəli ev 1908-ci ildə tikilib və Hacınski qardaşlarına məxsus olub. 18 min ton çəkiyə malik bina dünyada yeri dəyişdirilən ən ağır binadır.

Fəvvarələr meydanı - Bakının ilk şəhər meydanıdır. Meydanın adı burada fəvvarələrin çox olmasını bildirir. Burada həm klassik, həm də avanqard formada, o cümlədən postament üzərində yerləşən 6 polad kürə şəklində fəvvarə var. Meydanın ətrafında XIX və XX əsr memarlıq abidələri yerləşir. Onlardan Nizami adına muzeyin binasını (1860), "Araz" kinoteatrının binasını (1870) qeyd etmək olar.

Əvvəllər Parapet meydanı kimi tanınan Fəvvarələr meydanı 1868-ci ildə Bakı qubernatoru Mixail Kolyubakinin təşəbbüsü ilə memar Qasım bəy Hacıbababəyovun layihəsi əsasında tikilib. Meydan bir müddət qubernatorun şərəfinə Kolyubakin meydanı adlandırılıb.

Daha sonra Parapet meydanı Karl Marksın adını daşıyıb. 1950-ci illərin yenidənqurma işlərindən (memar İ.Tixomirov) sonra bu bağ müasir şəhərin planında öz mövqeyini möhkəmlədib. Nəticədə bağ Mətbuat evi və kitabxana binasının kiçik və köhnə bağları ilə əlaqələndirilən, geniş, yaxşı yaşıllaşdırılmış meydana və bağa çevrilib. Bakının mərkəzi hissəsində qovşaq yerini tutan bağ Nizami küçəsi ilə yanaşı, uzun illər piyada əsas yolu olub.

1984-cü ildə bağın yenidən qurulmasında yeni mərhələ başlanıb. Memar və rəssam R.Seyfullayevin ideyasına əsasən parkın görünüşü nəzərəçarpacaq dərəcədə dəyişib. Meydan və bağın ərazisi qırmızıya çalan xüsusi beton pilətələrlə örtülüb, bağın terras və pilləkənləri ağ daşlarla haşiyələnib. Bağın memar-landşaft kompozisiyasının mühüm hissəsini fəvvarələr təşkil edir. Məhz fəvvarələrin çox olmasına görə bura Fəvvarələr meydanı adlanır. Parkın mərkəzində yerləşən fəvvarə heykəltəraşlıq kompozisiyası ilə bəzədilib.

2010-cu ildə Fəvvarələr meydanı tamamilə yenidən qurulub. Burada fəvvarə, fənər, pavilyon və köşklər yenidən qurulub, yaşıllıq qorunub saxlanılıb, ərazisi genişləndirilib. Bu gün meydan Bakının mərkəzi hissəsinin "siması"dır.

Müasir parklardan olan Dədə Qorqud parkı 2013-cü ildə açılıb. 6 hektar ərazidə salınmış bu park paytaxtın ən böyük parklarındandır. Tarixi keçmişini əks etdirən sənət abidəsidir. Dastanda xalqın vətənpərvərliyi, qəhrəmanlığı, müdrikliyi, tarixi keçmişi, mənəvi dəyərləri, oğuz türklərinin adət və ənənələri, Azərbaycan toponimləri əksini tapıb. Bu dastan dilimizin qədim incəliklərini, xalqımızın mədəniyyətini öyrənmək üçün əvəzolunmaz mənbədir.

Parkın ərazisində sahəsi üç hektar olan süni göl və şəlalə yaradılıb. Parka gələnlər katamaranları kirayə edərək göldə gəzə bilərlər. Bunun üçün iki körpü var. Bundan başqa, süni şəlalənin aşağı hissəsində, habelə xüsusi su bitkiləri üçün nəzərdə tutulan kiçik körfəzin üzərində gəzinti üçün körpü salınıb.

Azərbaycan ədəbiyyatının korifeyi Nizami Gəncəvinin obrazına müraciət etməyi qarşısına məqsəd qoyan F.Əbdürrəhmanov tarixi ikonoqrafik qaynaq olmadan şairin son dərəcə inandırıcı, xaarkterik cizgiləri ilə yaddaqalan surətini yaratmağa nail olmuşdur. Nizami Gəncəvinin Bakı şəhərinin mərkəzində ucaldılan əzəmətli abidəsi, şairin Gəncədəki heykəli kimi, özünün bədii xüsusiyyətləri və obrazın yüksək işlənilmə imkanları baxımından heykəltaraşlıq sənətinin ən kamil əsərlərindən sayılır.

Azərbaycan ədəbiyyatının korifeyi Nizami Gəncəvinin obrazına müraciət etməyi qarşısına məqsəd qoyan F.Əbdürrəhmanov tarixi ikonoqrafik qaynaq olmadan şairin son dərəcə inandırıcı, xarakterik cizgiləri ilə yaddaqalan surətini yaratmağa nail olmuşdur. O, sənətkarlıq qüdrətinin məharətini sübut etməklə, həm də mənsub olduöu zəngin mədəniyyət xəzinəsinin istinad mənbəyini

tamaşaçılarına işarə etmişdir. Nizami Gəncəvinin Bakı şəhərinin mərkəzindəucaldılan əzəmətli abidəsi, şairin Gəncədəki heykəli kimi, özünün bədii xüsusiyyətləri və obrazın yüksək işlənilmə imkanları baxımından heykəltaraşlıq sənətinin ən kamil əsərlərindən sayılır. Nizami Gəncəvinin fiquru sol ayağı irəliyə doğru hərəkətdə, sağ əli ilə geyimindən yapışmış, sol əlində əlyazmasını bükülmüş formada tutaraq, nəzərləri uzaqlara dikilmiş və dərin xəyallar aləminə dalmış vəziyyətdə təsvir edilmişdir. Şərq qiyafəli Nizaminin məğrur duruşunda, başının qürurlu görünüşündə, eləcə də düşüncəli çöhrəsində gövrünün çirkinliklərinə və nəfsinin saray mühitinin dəbdəbəsinə qalib gəlib asanlıqla duyulur.

Azərbaycan heykəltaraşlıq məktəbinin layiqli nümayəndəsi F.Əbdürrəhmanovun Bakı şəhərində ucaldılmış xalq şairi Səməd Vurğunun diqqətçəkən abidəsi olduqca maraqlı heykəltaraşlıq əsəridir. 1960-cı ildə heykəltaraş Fuad Əbdürəhmanov tərəfindən hazırlanan heykəl o dövrdə Oktyabr meydanı adlanan parkda qoyulmuşdur. Heykəlin memarı Mikayıl Hüseynovdur. Heykəlin qoyulduğu park hazırda Səməd Vurğun bağı və ya Səməd Vurğun parkı adlanır. Hündür dəyirmi postament üzərində, sol əli sinəsinə, sağ əli bir qədər irəliyə doğru uzanmış vəziyyətdə yaradılmış gursaçlı şairin düşüncəli çöhrəsindən sanki aşağıdakı misralar süzülür:

Mən bir uşaq, sən bir ana
Odur ki, bağlıyam sana:
Hansı səmtə, hankı yana
Hey uçsam da yuvam sənsən
Elim, günüm, obam sənsən!

F.Əbdürrəhmanovun uğurlu monumental heykəltaraşlıq əsərlərindən biri də Sovet İttifaqı Qəhrəmanı Mehti Hüseynzadənin heykəlidir. Bu heykəl bədii və texniki xüsusiyyətlərinin işlənilməsi baxımından yaddaqalan əsərdir. İsər kompozisiyanın, istərsə də obrazın uğurlu həlli tamaşaçıya bədii estetik zövq verməklə yanaşı, həm də insanda vətənə sədaqət, millətə sevgi hisslərini qüvvətləndirir. Heykəltəraş, Mehdi Hüseynzadəni əlində qumbara tutaraq növbəti əməliyyat apardığı anda təsvir etmişdir. Heykəldə partizanın nifrət dolu gözləri, bir-birinə sıxılmış dodaqları və üzünün cizgiləri işlənmişdir.

Ömər Eldarov sənətkarlığı və ustalığı həm də ölkəmizdən xaricdə, müxtəlif ölkələrin şəhərlərində ucaldılmış monumental heykəllərdə öz əksini tapıb tapıb Onun monumental heykəltaraşlıq işlərinə nümunə olaraq X.Natəvanın (tunc, qranit, 1960, Bakı), M.Füzulinin (T.Məmmədovla birlikdə, tunc, qranit, 1963, Bakı), H.Cavidin (tunc, 1993, Bakı) və başqa görkəmli şəxsiyyətlərin abidələrini göstərmək olar. Bu abidələrin hər biri ayrı-ayrılıqda geniş şərh edilməyə layiq yüksək sənət nümunələridir. Odur ki, əsərlərin bəzilərinin bədii xüsusiyyətlərini və ifadə sənətkarlığını şərh etməyi lazım bilirik.

Bakı şəhərinin mərkəzi hissəsində yerləşən X.Natəvanın qəmli obrazı dairəvi postament üzərində olduqca cəlbedici görünür. İctimai xadim, şairə vəzaərif ana məziyyətlərini Ö.Eldarov yaratmış olduğu obrazında bütövlükdə ümumiləşdirməyə müvəffəq olmuşdur və abidə X.Natəvanın tam ictimai və bədii yaradıcılıq fəaliyyətini, eyni zamanda xarakterik insani cizgilərini özündə cəmləşdirmiş möhtəşəm sənət əsəridir.

Azərbaycanın görkəmli filosof-şairi M.Füzulinin Akademik Milli Dram Teatrının qarşısında ucaldılmış abidəsi Xalq rəssamı Tokay Məmmədovla Ömər Eldarovun birgə təxəyyülünun məhsuludur. Əzəmətli teatr binasının fonunda hündür postament üzərində Şərq geyimində təsvir edilmiş filosof-şair M.Füzulinin düşündürücü surəti ilk andaca tamaşaçını özünün sehrli poetik aləmini cəlb edir. Surətin sağ əlini çənəsinə söykəməsi, sol əlində kitab tutması və sağ ayağını bir qədər irəliyə doğru qoymuş vəziyyətdətəsvir edilməsi ilə obrazın dinamikliyi daha da artırılıb.

Cəlal Qaryağdının monumental heykəltaraşlıq sərləri ölkəmizin payatxtı Bakı şəhəri ilə yanaşı bölgələrini də bzəyir və tamaşaçıların bədii-estetik zövqünün formalaşmasına müsbət təsir göstərir. Heykəltaraşın monumental heykəltaraşlıq əsərlərinə nümunə olaraq M.P.Vaqifin heykəli(1939-1940, Bakı, Nizami Muzeyinin qərb fasadının lojası), M.Ə.Sabirin heykəli (tunc, qranit, 1958, memarlar Ənvər İsmayılov və Qəzənfər Əlizadə, Bakı), N.Nərimanovun heykəli (tunc, qranit, 1966-1968, memar Tahir Abdullayev, Bakı, açılışı 1972-ci ildə olmuşdur) göstərmək olar.

Bakı şəhərinin mərkəzində ucaldılmış Azərbaycan satirik şeirinin ən görkəmli nümayəndələrindən olan M.Ə.Sabirin heykəlini həmin məkandan kənar təsəvvür etmək mümkünsüzdür. Oturmuş halda, buxara papaq, sağ əlində dillər əzbərinə çevrilmiş “Hophopnamə-sini tutmuş vəziyyətdə təsvir edilmiş şairin düşüncəli çöhrəsində şeirləri süzülür.

Abidənin ətraf aləmlə və heykəlin postamenti ilə üzvi bağlılığı ustalıqla tapılıb və son dərəcə uğurlu həll edilib.

Azərbaycanın görkəmli maarifçisi və dövlət xadimi Nəriman Nərimanovun əzəmətli heykəli Cəlal Qaryağdının cəlbedici əsərlərindəndir. Lakin bu nəhəng abidənin postamentlə uyğunsuzluğu gözə çarpır. Heykəltaraşın həyat yoldaşı Firəngiz Hüseynova abidə barədə deyir: “Hələ o vaxt, abidənin açılışına az qalmış Moskvaya məktub göndərib, azərbaycanlıların Bakıda Kirovun heykəllindən hündür heykəl ucaltmaq istədiklərini xəbər verdilər. Heykəl hazır idi. Tuncdan tökülmüş abidənin kiçildilməsi mümkün deyildi. Ancaq Sovet höküməti Nərimanovun öz xalqına Kirovdan uca nöqtədən baxmasına yol vermədi. Heykəlin postamenti kiçildildi. Cəlal o zaman bundan çox narazı qalıb.

Kameralı obrazlar üzərində işləyərkən İ.Zeynalov metodunun meydana çıxmış bir sıra xüsusiyyətləri tarixi obrazların yaradılmasında öz inkişafını tapdı. Beləliklə Şah İsmayıl Xətai obrazı üzərindəki uzun müddətli və gərgin iş möhtəşəm abidənin heykəltaraşlıq həllinə kömək etdi (1991-ci il, memar H.Əliyev).

Bu əsərdə bədii cəhətdən incələşmiş natura olan maarifpərvər hökmdar və şairin, XVI əsrin görkəmli siyasi xadiminin əfsanəvi və rəmzi elementləri özünəxas qaydada uyğunlaşır.

Abidə şəhərin girəcəyində yerləşir, görünüş qavrayışı üçün bolluğa, çox vaxt isə gözlənilməz nöqtələrə malikdir. O müəyyən mikrofəza üçün mənəvi mərkəzə çevrilmişdir. Abidə ciddi konstruktivliyi, rövnəqli modelləşdirmə, bir-birinə axıcılığı olan heykəltaraşlıq həcmlərinin ətraf fəzanı öz dinamikliyinə cəlbetmə xüsusiyyəti ilə fərqlənir. Həcm və əhatənin nisbəti heykəltaraşlıq kompozisiyasının təsviri-məzmun başlanğıcını aydınlaşdırmaqla abidənin mövzusunun açılışı üçün mühüm əhəmiyyət kəsb edir. Bu isə dövlətin tarixi haqqında, onun qəhrəman yaradıcıları haqqında hərkəsə müəyyən təssəvür verir.

Psixoloji cəhətdən dolğun olan Şah İsmayıl Xətai obrazında heykəltəraş böyük şəxsiyyətin yüksək humanistliyini və mənəvi zənginliyini çatdıra bilmişdir.

Heykəl yüksək bədii-estetik dəyəri, plastik forma rəngarəngliyi və milli koloriti ilə seçilir. 2007-ci ilə Şah İsmayıl Xətai heykəlinin postamenti yenidən qurulmuş, abidə isə yenidən bərpa edilmişdir.

2017-ci ildə yol təmirinə görə abidənin yerinin dəyişdirilməsi düşünülsə də, nəticə etibarilə təmir zamanı abidəyə toxunulmadı.

2020-ci ildə isə heykəl Yusif Səfərov küçəsində Leyla Şıxlinskayanın klinikası ilə Mərkəzi Neftçilər Xəstəxanasının arasındakı əraziyə köçürüldü.

70-ci illərdə Bakıda ən sevimli yerlərdən biri 26-ların Memorial koompleksi (1968-1970-ci illərdə qurulmuş, memarları Q.Ələsgərov, A.Hüseynov) olmuşdur.

Əlində əbədi məşəl tutmuş kişi yarımfiqurunun çoxsaylı pilələrə yönəldiyi monumental podiumun bağın mərkəsində yerləşdirilməsi mövzunun həllinə münasibət mənasında həm yeni, həm də orijinaldır. Qara mərmər lövhəli pillələrin qırmızı qranitlə uyğunlaşdırılmış podiumla uzlaşdırılması təntənəlik və möhtəşəmlik effekti yaradır. Heykəltəraş əbədi xatirə mövzusunun rəmzi həllində fiziki və mənəvi qüdrətli monumental qəhrəman obrazının canlı-plastik traktovkasının ifadəliliyini əldə etmişdir. 1972-ci ildə 26 Bakı komissarı Memorialı SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.

Nizaminin heykəli (1990-ci il, Bakı, memar H.Əliyev) formanın düşünülmüş seçimi, onun dəqiq modelləşdirilməsi, linear quruluşun qrafik cəhətdən dəqiqliyinin zərifliyi fərqləndirir. Fiqurun bütün hissələrinin yumşaq dəqiqliklə yapılması, bütün detalların ifrat hamarlanmaya yol verilmədən işlənməsi obrazın məzmununda kök salmış insanlıq və səmimilik tələblərinə cavab verir. Abidənin böyük bədii dəyəri onda ifadə olunan ideya və vasitələrin məhz bu vəhdətindədir.

Yasamal rayonunda yerləşən parklarda da monumental heykəllərə rast gəlmək mümkündür. Məsələn, Hacı Zeynalabdin Tağıyevin heykəli və ya Həzi Aslanovun heykəli bu rayonun parklarında yerləşir və ictimaiyyətin diqqətini cəlb edir.

Bu heykəllər, həmçinin, şəhərin vizual görünüşünü zənginləşdirir və yerli sakinlərlə yanaşı, turistlər üçün də cəlbedici məkanlar yaradır.

Heykəltaraş Tokay Məmmədovun monumental əsərləri olmadan Bakını təsəvvür etmək çox çətindir. Onun abidələrini insanlar sevə-sevə seyr edir və yüksək dəyərləndirirlər. Bu fikri heykəlatəraşın yubileylərindən birində ümumilli lider Heydər Əliyev ona təbrik məktubunda demişdir: “Bakının küçə və meydanlarını bəzəyən işləriniz, şəhər görkəminin ayrılmaz hissəsinə çevrilərək, onu daha gözəl edir, milli mədəni irsimizə dərin məhəbbət və hörmət hissi oyadır. Bu, Azərbaycanın müstəqilliyi və onun mədəniyyətinin çiçəklənməsi naminə doğma torpağına və öz xalqına bağlı olan ustad kimi sizin vətənimizə verdiyiniz çox qiymətli töhfədir”.

Tokay Məmmədovun 1978-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüş “Məşədi Əzizbəyov” abidəsi.

Reproduksiyalara diqqət yetirin, obraz həqiqətən daxili qüvvə və qətiyyətlə doludur. Geniş açılmış sağ əlin azadə jesti və onun müşayiət edən əla detal- yaxası açılmış paltonun bükülmüş ətəyi.Bir qədər kənara qoyulmuş ayaq, plastik olaraq əla işlənmiş bədən quruluşu, abidənin müxtəlif baxış nöqtələrindən aydın “oxunması” na yol açan uğurlu məkan dönməsi bir qədər arxaya aparılmış başın dəqiq tapılmış rakursunda, həmçinin əlin ani hərəkətində -ümumiyyətlə, bütün fiqurda qətiyyət hiss olunur. Ciddilik, formaların lakonizmi, səthin ümumiləşdirilmiş müstəvilərlə işlənilməsi güclü obraz yaratmışdır. Tokay Məmmədovun bu işi şübhəsiz ki, özündə sənətkarın o dövrdəki ən yaxşı bədii nailiyyətlərini daşıyır: kompozisiyanın sadəliyi və ciddiliyi, siluetin, proposional ərsəyə gətirilmiş fiqur boz qranitdən olan uca və ciddi postamentlə uğurlu şəkildə uzlaşdırılması.

İnqilabçının nəhəng və möhkəm fiquru bir neçə il bundan öncəyə qədər şəhərin görkəmli yerlərindən birində qürur və əzəmətlə ucalırdı. İndi isə,bu abidə barəsində keçmiş zamanda söz acmağa məcburuq.

İmadəddin Nəsimi abidəsini yaratmaq üçün müsabiqə keçirilir. Tokay Məmmədov işi qələbə qazanır.

Ərazinin yenidən qurulması ilə əlqaqədar kiçik zaman fasiləsini nəzərə almasaq, artıq otuz ildən çoxdur ki, bu abidə Nizami və Səməd Vurğun küçələrinin kəsişməsində qərar tutmaqdadır.

Abidəyə nəzər yetirdikdə görürük ki, başın azacıq çevrilməsi, üzün soyuqqanlı ifadəsi ilə məğrur qamət nəzərə çarpdırılır.Əllərini arxada çataqlamış aydın siluet, düz burnu, incə qövslü qaşları olan çoşğun,xüsusi diqqət cəlb edən fərdiləşdirilmiş sifət – bütün bunlar yeni obraz və romantik xarakter axtarışlarından xəbər verir.Fiqurun bir qədər dönməsi istiqamətində küləyin dalğalandırdığı qol örtüyü müəyyən mənada kompozisiyanın maraqlı hissəsidir.Nəcib və ağıllı üz cizgilərinə malik, vəcdə gəlmiş qədd-qamətli bu “Nəsimi” Bakıdakı abidələr içərisində ən romantiklərdən biri hesab oluna bilər.

2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı şəhərində xalq qəhrəmanı Koroğlunun abidəsinin ucaldılması barədə Sərəncamı dərc edildi. 2012-ci ildə bu abidənin açılış mərasimindəki çıxışında ümumi fikiri ifadə edən İlham Əliyev demişdir: “Bizim istedadlı heykəltəraşımız Tokay Məmmədov gözəl və əzəmətli bir əsər yaratmışdır. Mən çox istəyirdim ki, şəhərimizin gözəl bir guşəsində yaraşıqlı və əzəmətli abidə ucaldılsın və bu gün biz bu tarixi hadisənin şahidləyirik”

“Koroğlu”- öz atını sanki ildırım sürəti ilə çarparaq qılıncını göylərə qaldırılmış qədim xalq eposunun qəhrəmanı. Monumental plastika formasında işlənmiş at və atlı fiqurları bu parlaq süjet kompozisiyasının əsasını təşkil edir.

“Koroğlu” abidəsində qəhrəman əfsanəvi süvarinin geyiminə bürünərək, öz daxili gücü ilə insanı valeh edir. Abidənin yerləşmə məkanı kimi iki küçənin arası ilə uzanan bağ nəzərdə tutulmuşdu. Bağın sərhədləri və ağacların yerləşməsi atlı fiqurun əsas baxış nöqtəsinə tərəf çevrilməsinin labüdlüyünü ortaya qoyurdu. Beləliklə, heykəltaraş klassik müəlliflərin izi ilə gedəərək, atı dal ayaqları üstdə şahə qalxmış, ya da vüqarlı yerişlə yerimə anında təsvir edə bilməzdi. At üstündə buludlarlarda pərvaz edən orjinal “Koroğlu” ideyası yerinə düşdü və heç biri əsəri

təkrarlamadı. Çətin ki, dünyanın harasındasa ayaqlarının heç biri yerə dəyməyən at heykəli olsun. Postamentlə abidənin obraz vəhdətinə nail olunması da dəqiq hesablanmışdı. Qəhrəman qılıncını havada oynadaraq, əfsanəvi alınmaz. Çənlibel qalasından aşağıya doğru - döyüşə atılan vəziyyətdə təsvir olunub. Qılınc kimlərəsə bir qədər böyük görünə bilər, amma heykəltaraşa məğlubedilməzlik və gücün rəmzi kimi məhz belə bir qılınc lazım idi. At buludları yarıb keçir, onun dayaq nöqtələri də elə həmin buludlardır. Ön tərəfdən baxdıqda da görünüş olduqca ifadəlidir və atlının fiquru yaxşı “ oxunur”. Əsərdə məzmunla kompozisiyanın vəhdəti Tokay Məmmədova obraz və emosional dolğunluq baxımından parlaq abidə yaratmaq imkanı vermişdir.

Xocalı faciəsinə, şəhidlərimizin xatirəsinə ucaldılan möhtəşəm abilər müqəddəs torpaqlarımı, azadlıq və müstəqilliyimiz uğrunda mübarizə aparan övladlarımızın qəhrəmanlıq, vətənpərvərlik si mvoludur.

Heyranı olduğumuz heykəllər həm də sanki keçmişdən bizə "yazılmış" daş məktubları xatırladır. Günü-gündən gözəlləşən ölkəmizin paytaxtı Bakı şəhəri böyük sənətkarların əl işləri olan heykəllərlə, abidə kompleksləri ilə zəngindir. Bu heykəllər şəhərimizə xüsusi yaraşıq verir, tarixi keçmişimizi özündə yaşadır, xoş hisslər aşılayır, ovqatımıza ovqat qatır.

Heykəllər də haradasa insanlara bənzəyir, kim bilir, bəlkə elə onlar kimidir. Onların da zaman-zaman diqqət və qayğıya ehtiyacı var. Bunu duyan, hiss edən, keçmişimizə, tariximizə hörmətlə yanaşan insanlar daim heykəllərə diqqət və qayğı göstərirlər. On gündür ki, "Abidələrə qayğı - Bakı şəhərində heykəltaraşlıq əsərlərinin təmizlənməsi və bərpası" layihəsi çərçivəsində ölkəmizin paytaxtındakı heykəllər təmizlənir, bərpa olunur, ikinci həyat verilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə paytaxtda yerləşən heykəllərin monitorinqi keçirilmişdir. Monitorinq nəticəsində şəhərə yaraşıq verən bəzi heykəllərin bərpaya ehtiyacı olduğu müəyyən edilmişdir. Artıq verilən təkliflərə uyğun olaraq ixtisaslaşmış texniki heyət tərəfindən bərpa-təmizləmə işlərinə başlanılıb. Məqsəd bu sənət əsərlərinin orijinal vəziyyətə qaytarılması və bərpa edilməsidir.

## ƏDƏBİYYAT

1. unec.edu.az https://unec.edu.az › uploads › 2018/12 › Az-rbay...
2.Azərbaycan Milli Kitabxanası. https://www.anl.az › medeniyyet
3. GoMap.Az https://kataloq.gomap.az ›
4.Xəbər lenti - Milli.Az https://news.milli.az › society
5.Wikipedia https://az.wikipedia.org › wiki
6.Wikipedia https://az.wikipedia.org › wiki
7.Wikipedia https://az.wikipedia.org › wiki
8.Azerbaijan-News.az https://azerbaijan-news.az › detail
9. Rafiq Kazımov “Парки Баку”, Bakı, “Şərq- Qərb”, 2023
10.Yusif Şeyxov “Tokay Məmmədov heykəltaraş”, “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi”,”Şərq – Qərb”, Bakı.
11. “Heykəltaraş İbrahim Zeynalov” ,Albom –monoqrafiya,Bakı, 1998
12. Cəmilə Novruzova “Fuad Əbdürrəhmanov”, Bakı, “Nurlan”, 2004
13. Əsəd Quliyev “XX əsr Azərbaycan incəsənəti haqqında oçerklər”, Bakı , 2012

***Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***E-mail: nermin.karimli1993@gmail.com***

**Narmin Karimli**

**MONUMENTAL STATUES İN BAKU PARKS**

Statues and monuments give beauty and deep meaning to the parks in Baku, complement the unique color of the area where they are erected, further enhancing its charm, and play a major role, along with natural conditions, in determining the beauty of the city.

***Keywords:*** *Monumental sculpture, park, sculptor*

**Нармин Керимли**

**МОНУМЕНТАЛЬНЫЕ СТАТУИ В ПАРКАХ БАКУ**

Статуи и памятники придают красоту и глубокий смысл паркам Баку, дополняют неповторимый колорит местности, где они воздвигнуты, еще больше усиливая ее очарование, и играют, наряду с природными условиями, важную роль в определении красоты города.

***Ключевые слова:*** *Монументальная скульптура, парк, скульптор.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 02.06.2025**
**Son daxilolma tarixi:28.06.2025**